# ADİ NARIN (*PUNICA GRANATUM* L.) BİOMORFOLOJİ VƏ FAYDALI XÜSUSİYYƏTLƏRİ

**Dilruba Əliyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu, adilruba@mail.ru*

Adi nar (*Punica granatum* L.) təbii halda Alazan-Əyriçay vadisində, Kür-Araz, Lənkəran-Astara ovalıqlarında və Abşeronda bitir. Dendrologiya İnstitutunun kolleksiyasında meyvəsinin formasına, ölçüsünə, rənginə və digər morfoloji xüsusiyyətlərinə görə fərqlənən çoxlu forma müxtəlifliyi toplanmışdır. Bu nümunələrin biomorfoloji xüsusiyyətləri tədqiq edilmiş, onların məhsullarından istifadə imkanları araşdırılmış və tövsiyələr verilmişdir.